**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 52-1**

**Bakı şəhəri** **10 aprel 2019-cu il**

**“15 may Beynəlxalq Ailə Günü”nə həsr edilmiş “Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığın əsasıdır” adlı konfransa hazırlıq işləri barədə**

Mütəmadi olaraq ölkəmizdə ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirilir, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət həyata keçirilir.

Bu məqsədlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən (BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-ci il qətnaməsinə müvafiq olaraq) “15 may Beynəlxalq Ailə Günü” münasibətilə may ayının 1-dən 15-dək silsilə tədbirlərin və 15 may 2019-cu il tarixində Bakı şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə “Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığın əsasıdır” adlı konfransın keçirilməsi nəzərdə tutulmuşdur.

Sözügüdən konfransın keçirilməsi ilə əlaqədar hazırlıq işləri həyata keçirilməkdədir.

“15 may Beynəlxalq Ailə Günü”nə həsr edilmiş “Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığın əsasıdır” adlı konfransın keçirilməsi barədə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A  A L I R:**

1. “15 may Beynəlxalq Ailə Günü”nə həsr edilmiş “Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığın əsasıdır” adlı konfransın keçirilməsi barədə məlumat nəzərə alınsın.
2. Konfransa hazırlıq barədə Komitənin Tədbirlər Planı təsdiq edilsin.
3. Konfransın keçirilməsi barədə məlumatlar Komitənin rəsmi internet səhifəsində yerləşdirilsin.
4. Qərarın icrası Ailə Problemləri şöbəsinin müdiri Gülnarə Məmmədovaya tapşırılsın.
5. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Aynur Sofiyevaya, aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**